https://doi.org/10.52094/TFXO3664

**UOT: 82-1/-9**

# ÜZEYİR HACIBƏYLİ PUBLİSİSTİKASININ DRAMATURGİYASI

**İlqar Fəhmi**
*Əməkdar mədəniyyət işçisi,*
*Azərbaycan Yazıçılar Birliyinin katibi*

Yazı sənətində elə janrlar var ki ilk baxışdan orda dramaturji inkişaf xəttinə ehtiyac olmur. Lakin süjet instinkti olan hər bir qələm sahibi hətta publisistik materiallar yazanda da qeyri-ixtiyari onun mətnində müəyyən dramaturji struktur müşahidə etmək olur.

Azərbaycan ədəbiyyatında belə qələm sahiblərindən biri də dahi Üzeyir Hacıbəylidir. Düzgün dramaturji inkişaf və səlis süjet xətti onun həm ədəbi, həm də musiqi yaradıcılığında özünü göstərir. Peşəkarlar bilir ki, bəstəkarda süjet instinkti və dramaturji hissiyyatı olmasa, iri həcmli simfonik əsərlər və epik operalar yaza bilməz. Üzeyir bəy isə istənilən musiqi əsərini təqdim edərkən, orda mükəmməl dramaturji struktur ön plana çıxır. Bu, tək librettoların süjet xəttinə aid deyil, həm də musiqi xəttini ehtiva edir. Eyni fikirləri onun publisistikasına da şamil eləmək olar.

Üzeyir Hacıbəylinin publisistik irsinin bir hissəsini özünəməxsus yumor hissi üzərində qurulmuş fraqmentar hadisələr təşkil edirsə, digər hissəsini də bədii ədəbiyyata yaxın olan süjet quruluşuna, dramaturji inkişafa malik felyetonlar təşkil edir. Bu felyetonların bir çoxu elə müəkəmməl dramaturji strukturda yazılmışdır ki, sanki felyeton janrından aralanıb, hekayə janrına daha çox yaxınlaşır.

Felyetonlara ad qoyulmadığına görə, adlarla nümunə göstərmək mümkün olmur, ona görə də, ədibin bir neçə məşhur felyetonunun süjetinə toxunmaq istərdim.

Dramaturji cəhətdən ən maraqlı quruluşu olan felyetonlardan biri millətin yatmağıyla bağlı olan materialdır. Burda süjet xətti həqiqətən də yüksələn xətlə inkifaş edir: əcnəbilər siçan düzəldir, biz yatırıq, pişik düzəldir biz yatırıq, qoyun düzəldir biz yatırıq – fəaliyyət getdikcə inkişaf edir və pik nöqtəsinə çatır.

Əcnəbilər fil düzəldəndə, biz oyanırıq - burda artıq iki pilləli dramaturji model müşahidə edirik. Bir xətt öz pik nöqtəsinə çatandan sonra, ardıyca gələn ikinci süjet xətti yenə də inkişaf edir, lakin bu dəfə sanki geri hərəkət müşahidə edirik – birbaşa fil düzəltmək istəyirik, alınmır, dəvə düzəltmək istəyirik, alınmır – fəaliyyət obyekti getdikcə kiçilir – nəhayət, sonda biz bir siçan düzəldirik… Burada da dramaturji kulminasiyanı müşadiə elədik. Və nəhayət, novella üslubunda gözlənilməz sonluq – hardansa bir pişik çıxır və bizim düzəltdiyimiz siçanı yeyir.

Təbii ki, felyetonun hansı simvolik məna daşıdığını izah etməyə ehtiyac yoxdur. Lakin felyetonun bu qədər yaddaqalan və təsirli olmasının səbəbi də, publisistik material olmağına rəğmən, içində mükəmməl dramaturji struktur saxlamasıdır. Üzeyir bəy sanki əvvəlcə öz düşüncəsində süjet quruluşunu və düzgün dramaturji strukturu qurur, yalnız bundan sonra təqdim etmək istədiyi hadisənin elementlərini bu strukturun üzərinə yığır.

Eyni fikirləri müəllifin Türk millətinin adı barədə olan felyetonuna və ya bir kənddəki qan düşmənçiliyini tənqid edən publisistik yazısına da şamil etmək olar. Millətimizin özünü türk yox, müsəlman kimi tanımasını, milliyyət və ümmət fərqini bilməməsinin cahilliyini tənqid edən müəlllif, adi publisistik yazılarda olduğu kimi sadəcə problemi işıqlandırmaqla məhdudlaşmır. Bir süjet xətti qurub digər millətlərin bu suala necə cavab verməyi üzərindən keçərək, dramaturji inkişaf xəttini bizim millətin üzərinə gətirir və kulminasiya nöqtəsinə çatdırır.

Kənddə qan düşmənçiliyini tənqid edən felyetonu da əsl macaraçılıq süjetlərinə xas olan dramaturji inkişaf modeli üzərində qurulmuşdur. Kənddə bir uşağın bir toyuğa daş atmasıyla başlayan konflikt düyünü inkişaf edərək öz kulminasiya nöqtəsində bütün kəndin bir-biri ilə kütləvi davasında pik həddinə çatır, qan su yerinə axır.

Üzeyir bəyin çap olunan bir çox felyetonlarında və publisistik yazılarında bu cür dramaturji strukturlara rast gəlmək mümkündür. Hətta sırf publisistika üzərində qurulan və heç bir hekayət nəql etməyən yazılarında belə özünəməxsus daxili struktur yer alır.

Əlbəttə, müasir dövrdə publisistka adı altında mətbu orqanlarda, sosial mediada təqdim olunan çoxsaylı materiallara baxanda, çatışmayan cəhətin məhz

daxili dramaturgiyanın olmamasıdır. Məhz bu baxımdan Üzeyir Hacıbəylinin felyetonları istənilən publisistik mətləbi dramaturji strukrur üzərinə yerləşdirib təqdim etməyin yollarını öyrənmək baxımından da faydalıdır.

**UDC: 82-1/-9**

## THE DRAMATIC STRUCTURE OF UZEYIR HAJIBEYLI'S OPINION JOURNALISM

**Ilgar Fahmi**
*Honored Cultural Worker,*
*Secretary of the Azerbaijan Writers' Union*

In written discourse, certain genres may initially seem to lack a dramaturgical line of development. Nevertheless, in the works of any author with a strong sense of plot, a specific dramaturgical organization of the text inevitably emerges, even when addressing journalistic material.

One notable figure in Azerbaijani literature is the exceptional Uzeyir Hajibeyli. His literary and musical creations clearly exhibit a well-defined dramaturgical development and coherent plot structure. It is widely recognized among experts that a composer devoid of a sense of plot and dramaturgical intuition cannot produce large-scale symphonic works or epic operas. In every musical piece presented by Uzeyir bey, a meticulously constructed dramaturgical framework is prominent. This principle applies not only to the narrative line of the libretto but also to the very essence of the music itself. The same observations are entirely relevant to his journalistic works.

Uzeyir Hajibeyli's journalistic contributions include, on one hand, fragmented portrayals of events infused with his unique sense of humor, and on the other, feuilletons that exhibit a clear plot organization and dramaturgical development closely resembling artistic prose. Many of these feuilletons feature such an elegant dramaturgical structure that, in terms of genre, they appear to surpass the limits of the feuilleton and approach the format of the short story.

Since these feuilletons typically lacked titles, it is impossible to reference examples by their headings. Thus, it seems fitting to examine the plots of several of the writer's most renowned feuilletons.

From a dramaturgical standpoint, one of the most compellingly crafted feuilletons is the one focused on the nation’s “sleep”. In this narrative, the plot unfolds in a progressively ascending fashion: foreigners create a mouse – we sleep; they create a cat – we sleep; they create a sheep – we sleep. The tension gradually builds, culminating in a peak moment. When the foreigners create an elephant, we awaken – and at this juncture, a two-tiered dramaturgical model becomes evident. Following the climax of the initial plot line, a second narrative emerges, but this time the progression appears to reverse: we immediately attempt to create an elephant – fail; try to create a camel – fail; the focus of our efforts gradually diminishes, and ultimately, we create a mouse… Once again, we experience a dramaturgical climax. Finally, an unforeseen resolution in a novella-like fashion occurs: a cat suddenly appears and consumes the mouse we have created.

It is clear that the symbolic importance of this feuilleton is apparent. However, its memorability and artistic strength arise precisely from the fact that, while it remains a piece of journalistic writing, it maintains a meticulously structured dramaturgical framework. Uzeyir bey seems to first conceptualize the plot model and the exact dramaturgical structure in his mind, and only then does he “thread” the elements of the event he wishes to present to the audience.

The same insights apply to the author’s feuilleton regarding the name of the Turkic people, as well as to his journalistic work critiquing blood feuds in a village. When revealing the ignorance that leads our people to identify not with a Turkic identity but rather a Muslim one, failing to differentiate between nationality and ummah, he does not merely state the issue, as is often the case in typical journalism. Instead, he constructs a narrative arc, sequentially exploring how representatives of other cultures respond to this issue, and then translates the dramaturgical development to his own people, bringing it to a conclusion.

The serialized story aimed at addressing blood feuds in the village is structured in a way that reflects the dramaturgical model typical of genuinely thrilling narratives. The initial conflict arises when a village boy throws a stone at a chicken, and it progressively intensifies, culminating in a large-scale brawl that engages all the villagers, resulting in a significant amount of bloodshed.

In numerous published feuilletons and journalistic pieces by Uzeyir bey, one can discern similar dramaturgical frameworks. Even within texts that rely solely on journalistic content, devoid of any narrative arc, a clear internal organization is evident.

Naturally, when one examines modern journalism, whether through print media or social platforms, a prominent deficiency is the lack of internal dramaturgy. In this context, Uzeyir Hajibeyli’s feuilletons stand out as exemplary: they illustrate how any journalistic content can be meticulously structured and presented through a thoughtfully designed dramaturgical lens.